**Con Maksvell Kutzee**

# İSANIN ÖLÜMÜ

Tərcüməçi:
Sevil Gültən

qanun nəşriyyatı

John Maxwell Coetzee

# THE DEATH OF JESUS

Nobel mükafatı almış müəllif "İsanın uşaqlığı" və "İsanın məktəb illəri" kitablarından sonra "İsanın ölümü" əsəri ilə öz trilogiyasını tamamlayır.

Estrellada yaşayan Devid artıq on yaşındadır, futbol oynamağa anadangəlmə istedadı var. Tez-tez dostları ilə futbol oynamağı sevir. Anası İnes bütün gününü paltar dükanında keçirir, onun oyunlarını müşahidə etməyə vaxtı yoxdur. Atası Simon və sevimli iti Bolivar onun oyunlarını seyr etməyi xoşlayırlar. Devid yenə də keçmişi ilə bağlı valideynlərinə çoxlu suallar verir, bu da onları çətin vəziyyətə salır.

Devid Musiqi Akademiyasının rəqs sinifində təhsil alır, istədiyi rəqsləri seçir. Riyaziyyat fənnini sevmir, məsələ-misal həll etməkdən imtina edir. "Don Kixot"dan başqa heç bir kitab oxumur.

Bir gün yaxınlıqda yerləşən yetimxananın direktoru Julio Fabrikant binanın arxasındakı meydançada futbol oynayan uşaqları görür. O, Devidi və onun dostlarını yetimxanada təşkil etdiyi yarışa dəvət edir. Devidgil bu yarışda uduzur. Julio Fabrikant onlara komanda yaratmağı təklif edir.

Devid atası Simonu və anası İnesi tərk edib yetimxanada yaşamağı üstün tutur. Bu da onlara çox pis təsir edir. Çox keçmir ki, Devid sirli xəstəliyə düçar olur, evlərinə qayıtmaq istəyir.

Müəllif "İsanın ölümü" əsərində suallarla dolu, lakin heç bir xatirəsi olmayan dünyanı kəşf etməyə davam edir.

**John Maxwell Coetzee** **THE DEATH OF JESUS**
**Con Maksvell Kutzee** **İSANIN ÖLÜMÜ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 200 səh.

Janr: bədii ədəbiyyat
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 26.07.2024

Naşir: Şahbaz Xuduoğlu
İngilis dilindən
tərcümə edən: Sevil Gültən
Redaktor: Kifayət Haqverdiyeva
Korrektorlar: Bəsti Məmmədova, İradə İslamova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-577-00-6

© Qanun Nəşriyyatı, 2024
Copyright © 2019 by J.M.Coetzee

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

# I FƏSİL

Soyuq bir payız günüdür. Axşamüstü. Simon binanın arxasında, geniş otluqda dayanıb futbol oyununu seyr edir. Adətən, o, binada yaşayan uşaqların oynadığı futbolu seyr edən yeganə tamaşaçı olardı. Amma bu gün iki yad adam da ayaq saxlayıb futbol oynayan uşaqlara baxır. Onlardan biri qara kostyumlu kişi, digərisə məktəbli forması geyinmiş qızdır.

Top sol küncdən qövsvari şəkildə uçub Devid oynadığı tərəfə düşür. Devid topu ayağı ilə saxlayıb müdafiəçini rahatlıqla ötür və asma zərbə ilə onu mərkəzə göndərir. Top oyunçuların və qapıçının yanından ötüb qapı xəttini keçir.

Uşaqların hər gün oynasalar da, adətən, komandaları olmur. Bütün uşaqlar iki yerə ayrılır, onlar da gah oyuna qoşulur, gah da oyundan çıxırlar. Hətta bəzən meydançada otuz, bəzənsə cəmi on iki-on üç uşaq olur. Üç il bundan əvvəl Devid ilk dəfə uşaqlara qoşulub futbol oynayanda, o, uşaqların arasında yaşca ən balacası, ən çəlimsizi idi. İndi isə böyük oğlanların arasındadır, hündür olmağına baxmayaraq cəlddir, sürətlə qaçır.

Oyunda fasilədir. Bayaqdan oyunu izləyən kişi ilə məktəbli qız Simona yaxınlaşır. Simonun ayaqlarının yanında mürgüləyən it oyanıb başını yuxarı qaldırır.

– Günortanız xeyir, – kişi deyir. – Bunlar hansı komandalardır?

– Sadəcə yaxınlıqdakı binalarda yaşayan uşaqlar iki qrupa bölünüb oynayırlar.

– Onlar heç də pis oynamırlar, – yad kişi deyir. – Siz valideynsiniz?

Simon öz-özünə deyir, doğrudan da, o kimdir? Özünün kim olduğunu izah etməyə ehtiyac varmı?

– Mənim oğlum da uşaqların arasındadır, – o deyir. – Devid. Qarasaçlı, ucaboy oğlan.

Yad kişi Devidi, ucaboy, qarasaçlı oğlanı başdan-ayağa süzür. Oğlan, demək olar ki, oyuna əhəmiyyət vermədən meydanda ora-bura qaçırdı.

– Onlar komanda təşkil etməyi düşünməyiblər ki? – yad kişi soruşur. – Özümü təqdim edim. Adım Julio Fabrikantdır. Yanımdakı qızın adı Mariya Prudensiadır. Biz Las Manosdanıq. Las Manosu tanıyırsınız? Yox? Las Manos çayın o uzaq sahilində yerləşən yetimxanadır.

– Tanış olaq, mənim adım Simondur, – o deyir və yetimxanadan olan Julio Fabrikanta əlini uzadır, Mariya Prudensiaya baxıb başını tərpədir. Onun fikrincə, Mariyanın on dörd yaşı olar. Qız boylu-buxunlu, sıx kirpiklidir, döşləri iridir.

– Bilirsinizmi niyə bu barədə sual verdim? Onları yetimxanada qəbul etməkdən məmnun olardıq. Bizim çox gözəl oyun meydançamız, normal qapı dirəklərimiz var.

– Məncə, bu uşaqlar topu ora-bura vurmaqdan da məmnundurlar.

– Yarışmadan inkişaf etmək olmaz, – Julio deyir.

– Sizinlə razıyam, – Simon deyir. – Amma bir tərəfdən də düşünürəm ki, komanda yaratmaq üçün bu uşaqların arasından on bir nəfər seçilməlidir, bu halda digər uşaqlar kənarda qalacaq. Nəticədə onların ideal mühiti dağılacaq. Bəlkə də səhv edirəm. Bəlkə də onlar komanda yaradıb yarışda iştirak etmək, təkmilləşmək arzusundadırlar. Onların özündən soruşun.

Top Devidin ayaqlarının arasındadır, topu gah sola, gah da sağa fırladır, elə rahat hərəkət edir ki, müdafiəçi çaşıb qalır. Sonra oğlan topu komanda yoldaşına ötürür. Komanda yoldaşı isə topu düz qapıçının qucağına atır.

– Oğlunuz çox yaxşıdır, – Julio deyir. – Bacarıqlıdır.

– Oğlumun dostlarından bir üstünlüyü var. Rəqs dərslərinə gedir, bu da ona tarazlığını yaxşı saxlamağa çox kömək edir. O biri oğlanlar da rəqs dərslərinə getsələr, onlarda da yaxşı alınardı.

– Mariya, eşidirsən? – Julio yanındakı qıza deyir. – Bəlkə sən də Devid kimi rəqs dərslərinə gedəsən?

Mariya gözlərini qabağa dikib.

– Mariya Prudensia futbol oynayır, – Julio deyir. – Bizim komandanın ən güclü oyunçularından biridir.

Günəş batmaq üzrədir. Tezliklə topun sahibi olan oğlan öz topunu tələb edəcək (*"evə getməliyəm" deyəcək*), oyunçular da dağılışacaq.

– Bilirəm, siz bu uşaqların məşqçisi deyilsiniz, – Julio deyir. – Onu da görürəm ki, siz heç də təşkil edilmiş idmanın tərəfdarı deyilsiniz. Amma yenə də bu oğlanların xətrinə mənim ideyam üzərində bir də düşünün. Bu da mənim vizit kartım. Məncə, onlar bir komanda kimi, başqa komanda ilə oynamağı xoşlayarlar. Sizinlə tanış olmağıma şadam.

Kartda belə yazılıb.

*Dr. Julio Fabrikant, Pedaqoq*

*Orfanato de Las Manos, Estrella 4*

Simon üzünü itinə tutub deyir:

– Hə, Bolivar, gəl gedək. Evə dönmək vaxtıdır.

İt ağır-ağır ayağa duranda ətrafa üfunət iyi yayılır.

Axşam şam yeməyində Devid atasından soruşur:

– Söhbət etdiyin o kişi kim idi?

– Onun adı Julio Fabrikantdır. Budur, bu da onun vizit kartı. Yetimxanada işləyir. O təklif edir ki, siz komanda yığasınız, yetimxananın komandası ilə oynayasınız.

İnes vizit kartını gözdən keçirir:

– Pedaqoq, – o deyir. – Bu nə deməkdir?

– Müəllim sözünü ifadə etmək üçün daha yaxşı sözdür.

Növbəti gün Simon yaşıl meydançaya gələndə Fabrikant artıq oradaydı, o biri oğlanlar onun başına toplaşmışdılar.

– Siz hətta komandanıza ad seçə bilərsiniz, – o deyir. – Eyni zamanda komanda köynəklərinizin rəngini də seçə bilərsiniz.

– Los-Qatos, – bir oğlan komandaya ad təklif edir.

– Las-Panteras, – başqa oğlan deyir.

O biri oğlanlar "*Las-Panteras*" adını çox xoşlayırlar.

– Yetimxanada öz komandamıza "Los-Halkones" deyirik. Ən iti görmə qabiliyyəti olan qırğının adının şərəfinə.

– Siz niyə komandanıza "Los-Huerfanos"[1] adı verməmisiniz?

Araya uzun sükut çökür. Nəhayət, doktor Fabrikant suala cavab verir:

– Çünki biz bu addan istifadə etmək istəmirik.

– Siz yetimsiniz? – Devid soruşur.

– Yox, mən özüm yetim deyiləm, amma yetimlər evinin rəhbəriyəm, özüm də orada yaşayıram. Mən yetimlərə hörmət edirəm, onları sevirəm. Bu dünyada onların sayı düşündüyünüzdən də çoxdur.

Oğlanlar susurlar, heç nə demirlər.

Hətta Simon da susur.

– Mən yetiməm, – Devid deyir. – Sizin komandada oynaya bilərəm?

Oğlanlar gülüşür. Onlar Devidin bu cür atmacalarına vərdiş ediblər.

---

[1] Yetim, anasız uşaq mənasını verir

– Devid, bir dayan, – onlardan biri deyir.

Simon söhbətə müdaxilə etməyə məcbur olur.

– Devid, məncə, sən "yetim" sözünün əsl mənasını bilmirsən. Yetimin ailəsi, evi olmur. Julio məhz belə uşaqları bir yerə yığıb. Səninsə evin var, – o belə deyib üzünü Julioya tutur. – Sizi də ailə məsələlərinə qatdığım üçün üzr istəyirəm.

– Üzr istəməyinizə ehtiyac yoxdur. Devidin qaldırdığı məsələ vacibdir. Yetim olmaq nə deməkdir? Yetim olmaq sadəcə valideynlərsiz qalmaqdır? Yox. Yetim olmaq, məsələyə daha dərin yanaşsaq, bu dünyada tənha olmaqdır. Bu mənada hamımız yetimik, çünki ən dərin mənada hər birimiz tənhayıq. Öhdəmdə olan uşaqlara həmişə deyirəm ki, yetimxanada yaşamağa görə utanmaq lazım deyil, çünki bura da cəmiyyətin bir mikrodünyasıdır.

– Siz mənim sualıma cavab vermədiniz, – Devid deyir. – Sizin komandada oynaya bilərəm?

– Yaxşı olar ki, sən öz komandanızda oynayasan, – doktor Fabrikant deyir. –Əgər bütün uşaqlar "Los-Halkones"də oynasaydı, onda bizim rəqibimiz olmazdı. Heç bir yarışdan da söhbət gedə bilməzdi.

– Mən demirəm bütün uşaqlar sizin komandada oynasın. Mən yalnız özümə görə xahiş edirəm.

Doktor Fabrikant üzünü Simona çevirib deyir:

– Senyor, siz nə deyirsiniz? Futbol komandanızın adının "Las-Panteras" olmağına razısınız?

Heç bir fikrim yoxdur, – Simon cavab verir. – Mən öz zövqümü bu gənclərə sırımaq istəmirəm, – o belə deyib susur, amma ürəyində öz-özünə deyir: *"Siz qəfil peyda olana qədər pərakəndə futbol oynamaqdan məmnun qalan uşaqlara"*.

# II FƏSİL

Onlar dörd ildir ki, bu çoxmənzilli binada yaşayırlar. Düzdür, İnesin ikinci mərtəbədəki geniş mənzili onların üçünə də kifayət edər, amma Simon qarşılıqlı razılaşma əsasında özünün birinci mərtəbədəki bir az kiçik, daha az mebel olan mənzilində qalır. Belindəki zədələnməyə görə qazancı bir az artırılandan sonra o, pul toplayıb bu mənzili ala bilmişdi. Belindəki ağrılar isə Novillada stividor[1] işlədiyi vaxtdan başlamışdı.

Simonun öz gəliri və öz mənzili var. Bununla belə, sosial çevrəsi yoxdur. Səbəb heç də onun adamayovuşmaz, yaxud yaşadığı Estrella sakinlərinin laqeyd olmağı deyil. Əsas səbəb odur ki, o lap çoxdan ömrünü bir oğlanı böyütməyə həsr edib. O ki qaldı İnesə, o, vaxtının çoxunu, hətta axşamları da kiçik, şərik olduğu mağazada keçirir. Orada müxtəlif dəbli paltarlar, aksesuarlar satılır. Onun dostları "Modas Modernas"dan və daha geniş moda dünyasındandır. Simon bilərəkdən bu dostluqlarla maraqlanmır. Bəlkə də dostları arasında İnesin sevgililəri də var. Lakin bütün bunlara Simon əhəmiyyət vermir, əsas odur ki, o yaxşı anadır.

Devid onların qayğısı ilə böyüyüb. İndi oğlan güclü və sağlamdır. Neçə illər bundan əvvəl, hələ onlar Novillada yaşayanda orta məktəb sistemi ilə mübarizə aparmalı olurdular. Çünki

---

[1] Stividor — Limanda gəmidəki yükləri  boşaldan işçi